# CAMIŞLARIN BAŞQA NÖV HEYVANLARDAN FƏRQLƏNƏN ƏSAS BİOLOJİ XÜSUSİYYƏTLƏRİ

*Mehdi MEHDİYEV, AKTA*

Azərbaycanda camış südündən, xalqımızın çox sevdiyi keyfiyyətli turş süd məhsulları, qatıq, süzmə, qaymaq, dondurma, pendir, dadlı şor hazırlanır. Camış qatığı inək və qoyun qatığından qatı, dadlı, yağlı və qiymətli hesab olunur. Camışın qatığı və ayranı yayda sərinləşdirici təsir göstərir, bəzi xəstəliklərə qarşı bunun profilaktik əhəmiyyəti vardır. Camış südü xüsusən, çay, qəhvə və şokaladla içildikdə çox ləzzətli olur. Hindistanda camış südündən yerli üsul ilə «koa» deyilən xüsusi qatı, süd, yemək üçün «qi» deyilən ərinmiş yağ, qatıq, ayran və s. hazırlanır.

Azərbaycanda yerli inəklərin südü ilə müqayisə etdikdə, camışların südündən kobalt, mis, dəmir və s. mikroelementlərin iki-üç dəfə artıq olduğu müəyyən edilmişdir. Camış südü kalsium oksidi (CaO) və fosfor anhidridi ($P_2O_5$) ilə nisbətən zəngindir ki, bunun da körpə heyvanların inkişafı üçün böyük əhəmiyyəti vardır.

Prof. C.M.Axundovun tədqiqatı göstərir ki, bir litr camış südündə 12-18 mq S. vitamini vardır. A vitamini bir litr süddə 0,125-0,196 mq-dır. A vitamini yaz-yay aylarında artır.

Camış südündə quru maddə orta hesabla 18-19, zülal 4,5, yağ 8,0, şəkər 5,0 və kül 0,8 %-dir. Akademik A.Ə.Ağabeylinin tədqiqatına görə camışlarda südlülük (kq) əlaməti üzrə irsilik əmsalı $h^2$=0,34; süddə yağ (%-lə) +0,70; süddə zülal (%) üzrə +0,76 və qurutma (%-lə) 0,82-dir, başqa sözlə yüksək olmaqla inəklərinkindən fərqlidir.

Akademik A.Ə.Ağabeylinin rəhbərliyi ilə Zərdab Camışçılıq Sovxozunda geniş sağım texnologiyasını tətbiq etməklə camışların yağlı – südlülüyünün dəyişməsini öyrənmişik.

Təcrübəyə əsasən müəyyən etdik ki, ilkin doğan 15 baş camışın süd məhsulu 110 kq-dan 1600 kq-a, 2-ci doğumda 1800 kq-a, 3 və yuxarı doğumda isə 2100 kq-a çatmış və bunların südündə yağlılıq 8,2% çatdırılmışdır.

Professor C.M.Axundova görə camış südündə karotinin miqdarı inək südünə nisbətən son dərəcə azdır. Elə buna görə də onun rəngi inək südündən fərqlənərək ağ olur. Lakin bu o demək deyildir ki, camış südündə A vitamini yoxdur. Camış südündə olan A vitamini inək südündəkindən geri qalmır. Sadəcə olaraq camış südündə olan A vitamininin südə rəng verən karotin forması azdır, əslində yox dərəcəsindədir.

Buna görə də camış südündən hazırlanmış yağ, qatıq, qaymaq, pendir, şor, kəsmik, süzmə, ayran və s. ağ rəngdə olur.

Təcrübələr göstərir ki, eyni saxlama və yemləmə şəraitində camış südünün tərkibindəki yağ faizi inək südündən iki dəfə, bəzi hallarda hətta 3 dəfə çox olur. camış südündə 8-10%, rekordçu camışlarda südün yağlılığı 12%-ə qədər çatır. İnək südündə isə orta yağ faizi 3,8-4,0%-dir.

Camış südünün yağlılığının belə üstünlüyü hər şeydən əvvəl, camışların fərdi xüsusiyyəti olub, tarixi inkişaf prosesində yaranmış və genetik cəhətdən möhkəmlənmiş irsi əlamətlərdir. Ola bilər ki, camış südünün yağlılığı onun anatomo-fizioloji xüsusiyyətlərindən də asılıdır. Yəni camışın işgənbəsindəki mikroorqanizmlər daha çox yağ turşuları sintez edir, yaxud sintez olunmuş yağ turşularının daha çox hissəsi süd vəzlərində tutularaq yağa çevrilir. Hər iki halda eyni miqdarda yem yemələrinə baxmayaraq camışlar inəklərə nisbətən daha çox yağlı süd verir.

Camışlar inəklərə nisbətən gec yetişən, lakin kökəlməyə meyilli heyvanlardır.

Camışlar möhkəm və kobud konstitusiyaya malik olduqları üçün onların əzələ lifləri inəklərə nisbətən qalın olur.

Camış dərisi inək dərisindən öz qalınlığı, ağırlığı, böyüklülü və keyfiyyəti ilə fərqlənən daha qiymətli yüngül sənaye xammalıdır. Camışların tər vəzləri dərinin dərin qatında yerləşdiyi üçün inəklərə nisbətən camışlar tərləmədiyindən bədənlərini sərinləşdirmək üçün su və gölməcələrdə yataraq

nisbətən sərinləşirlər. Ona görə də camışlar su sevər heyvanlar sayılır.

Kütləvi qırğınla nəticələnən qarayara xəstəliyinin törədicilərinə qarşı camışların az həssas olması, kütləvi tələfat verən qan paraziti xəstəliklərinə davamlılığı, vərəm, taun və dabaq kimi çox yayılan xəstəliklərə tutulsa da, ağırlaşma hallarının müşahidə edilməsi alimlərimiz tərəfindən dərin tədqiq olunmuşdur.

Camışlar inəklərə nisbətən gec əhliləşgirildiyindən nisbətən çox şıltaq və kinlidir. Camışlar həvəsdə olarkən, törədici olmadıqda onu 10-15 km yol qət edərək axtarır, cütləşdikdən sonra öz yerinə qayıdır. Camışlar doğarkən qaranlıq yerlərə, meşəliyə, qamışlığa və s. yerlərə qacaraq əksər halda ayaq üstə doğurlar. Bu əlamətlər başqa növ heyvanlarda baş vermir.

## İSTİFADƏ OLUNAN ƏDƏBİYYATLAR:

1. A.Ə.Ağabəyli – Azərbaycan camışları. Bakı – 1980.
2. A.Ə.Ağabəyli – Camışın biologiyası və məhsuldarlığı. Bakı – 1960.
3. C.M.Axundov – Süd və süd məhsullarının texnologiyası. Bakı – 1970.